http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №03 (1557) 15 fevral 2013 - cü il Qiyməti 20 qəpik

## Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir



**Cənab Prezidentin yekun nitqində yerli və mərkəzi icra orqanlarında çalışan dövlət məmurlarının ünvanına kəskin iradlar səslənmişdir: *«İnsan amili, insan kapitalı. Mən hələ bunu 2003-cü ildə demişəm, biz neft kapitalını insan kapitalına çevirməliyik. Bunu deyəndə təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır, dövlət qurumları tərəfindən normal rəftar edilməlidir, təhdid edilməməlidir, incidilməməlidir. Belə hallar var?! Var! Kim bunu edir?! Dövlət məmurları! Kim incidə bilər vətəndaşı?! Dövlət məmuru! Mən yenə də deyirəm, bütövlükdə bölgələrdə icra nümayəndələrinin fəaliyyəti müsbətdir, ancaq belə hallar da vardır. Buna yol vermək olmaz. Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir. Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət! Hər birinə, burada oturan bütün icra başçılarına. Hamısını mən təyin etmişəm. Bəzi rayonlarda bir neçə dəfə dəyişmişəm. Nəyə görə? Çünki etimadımı doğrultmurlar. Hər birinə demişəm ki, gedin, insanlara arxa durun, gedin, köməklik göstərin. Gedin, hörmət edin insanlara. Amma bəzi hallarda mən bunu görmürəm. Görməyəndə də tədbirlər görürəm. Bəzi hallarda məmurlar vətəndaşlara yuxarıdan aşağı baxırlar, onları saymırlar, onları təhqir edirlər, qudurğanlıq edirlər. Bütün bu hallar var, bunlar aradan götürülməlidir.***

***Hər bir dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir, insanlara qulluq etməlidir və təvazökar olmalıdır. Ancaq bəzi hallarda təvazökarlıqdan, ümumiyyətlə, söhbət getmir. Özləri üçün böyük məclislər, təmtəraqlı toylar, yubileylər düzəldirlər. Yaraşırmı bu, dövlət məmuruna?! Mən öz 50 illiyimi Ağcabədidə köçkünlərlə keçirmişəm. Bu, mənim təbiətimdir, ikincisi, bununla bir yol göstərirəm. Belə olmaq lazımdır. »***

# LİDS UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ ATU-DA

**Fevralın 4-dən 6-dək Avropa Şurasının maliyyələşdirdiyi TEMPUS proqramının MUMEENA (Avropa Şurasının Şərqi Avropada Tibb Təhsilinin Müasirləşdirilməsi) layihəsinə koordinatorluq edən İngiltərənin Lids (Leeds) Universitetinin nümyəndə heyəti: professor Anne-Marie Reid - koordinator (Tibb Təhsili İnstitutu), Dr. Richard Fuler (Diplomaqədərki Tibb Təhsili şöbəsinin müdiri), və Elaine Brock (layihənin kommersiya direktoru) layihə çərçivəsində 1 il ərzində görülmüş işlərin monitorinqi məqsədilə Azərbaycan Tibb Universitetində olmuşlar.**

İşçi səfərin ilk günü nümayəndə heyəti ATU-nun rektoru, millət vəkili, akademik Ə.Əmiraslanov ilə görüşmüşdür. Görüş zamanı universitetimizdə bu proqram çərçivəsində həyata keçirilən işlərin uğurlu nəticələrindən danışan Ə.Əmiraslanov bildirdi ki, hal-hazırda ATU TEMPUS proqramının 3 layihəsinin iştirakçısıdır. Bu proqramın müddət vaxtı 2014- cü ildə başa çatsa da, biz gələcək layihələrdə iştirak etməkdə maraqlıyıq.

Qonaqlar bu proqramda qarşıya qoyulan vəzifələrdən söhbət açmış, partnyor universitetlədə qabaqcıl təcrübənin lazımi səviyyədə həyata keçirildiyini qeyd etmişlər. Onlar TEMPUS proqramı çərçivəsində yaradılan bu layihənin işindən razı qaldıqlarını və Azərbaycan Tibb Universiteti ilə iş qurmaqdan şərəf duyduqlarını dilə gətirmişlər.

Görüşdə son illərdə respublikamızda tibb təhsilinin müasirləşdirillməsi istiqamətində atılmış addımlar, həmçinin Azərbaycan Tibb Universitetinin TEMPUS proqramı çərçivəsində iştirak etdiyi bir sıra layihələrin, o cümlədən MUMEENA layihəsinin bu işə verəcəyi töhfələr haqda fikir mübadiləsi aparılmışdır.

Akademik Ə.Əmiraslanov universitetimizin TEMPUS layihələrində iştirakının çox təqdirəlayiq hadisə olduğunu və MUMEENA layihəsinin ardınca Lids universitetinin koordinatorluğu ilə yeni təklifin verilməsi perspektivini dəstəklədiyini bildirmişdir.

Görüşdə Azərbaycanda Milli TEMPUS Ofisinin rəhbəri Pərviz Bağırov, Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Tamilla Əliyeva, universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Məmməd Nəsirov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova,



Mətbuat xidmətinin rəhbəri, professor Mübariz Allahverdiyev və ATU-nun dosentləri İsmayıl Əfəndiyev, Nadir Zeynalov iştirak etmişlər.

Sonra nümayəndə heyəti ATU- nun Virtual Test Mərkəzində olmuş, kompyuter sistemilə aparılan qiş imtahan sessiyasının gedişatı ilə maraqlanmışlar.

İki gün davam edən monitorinq zamanı Azərbaycan Tibb Universitetində yeni yaradılacaq Müəllimlərin Təlim Mərkəzinin strukturu və proqramı müzakirə edilmiş, sonra Lids universiteti əməkdaşları azərbaycanlı həmkarlarına ATU-nun TTK-nın təlim mərkəzində OSCE - obyektiv strukturlaşdırılmış klinik imtahana hazırlıq barədə tövsiyələr vermiş, mühazirələr oxumuşlar.

**Rəhimə QABULOVA,**
*Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent*

*«Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət olmuşdur»*
**H.Əliyev**

# Dövlətçiliyimiz-əbədi liderimiz

**Adı bəşər tarixinin yaddaşına əbədi qızıl həriflərlə yazılmış, vətən və xalq qarşısında müstəsna xidmətlər göstərmiş ulu öndər Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir. Tariximizin taleyüklü hadisələrlə dolu bir dövrü onun adı ilə bağlıdır.**



Ulu öndərimiz Heydər Əliyev bu illər ərzində dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi tərəqqisinə nail olmuş qüdrətli dövlət xadimidir. Dünyanın ən tanınmış dövlət xadimlərinin, siyasətçilərinin onunla hesablaşması bu tarixi şəxsiyyətin əzəmətindən xəbər verir. Məmləkətimizin dövlətçilik tarixində xüsusi yeri olan Heydər Əliyev özünün zəngin siyasi fəaliyyəti sayəsində ikinci dəfə hakimiyyətə qaydışı ilə tarixi dövlətçiliyimizi real məhvdən, məmləkətimizi dünya xəritəsindən silinməkdən xilas etdi və ölkənin hərtərəfli inikişafı prosesinə qüvvətli təkan verərək, onu daimi yüksəliş yoluna çıxardı. O, Azərbaycan xalqı, dövləti qarşısında misilsiz xidmətlər göstərərək, xalqımızın müstəqillik arzusunun gerçəkləşdirilməsində, müasir Azərbaycan dövlətinin bərqərar olmasında müstəsna rol oynadı.

Azərbaycan xalqının ümümilli lideri Heydər Əliyevin 90 illik yubleyi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2013-cü il tarixli sərəncamında deyilir: «Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynmağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir».

Ulu öndərin 90 illik yubleyi ilə bağlı Prezident sərəncamının verilməsi böyük tarixi şəxsiyyətimizə dövlətimizin, xalqımızın verdiyi dəyərin təcəssümüdür. Aydındır ki, yubiley günlərinə qədər bir çox tədbirlər planı həyata keçiriləcəkdir.

Azərbaycan Tibb Universitetinin «Azərbaycan tarixi» kafedrasının əməkdaşları da istər respublika miqyasında və istərsə də universitet çərçivəsində keçiriləcək tədbirlərdə fəal iştirak etməyə qərar vermişlər. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan tarixinin öyrənilməsinə, təbliğinə və tədrisinə həmişə qayğı ilə yanaşmışdır. O, çıxışlarından birində demişdi: ''Hər bir gənc üçün ali məktəbdə təhsil alaraq öz tarixini daha dərindən öyrənmək böyük xoşbəxtlikdir''. Məhs ulu öndər Heydər Əliyevin və ölkə başçısı möhtərəm Prezidentimiz İlham Əliyevin «Azərbaycan tarixi»nə diqqətlərinin nəticəsidir ki, onun öyrənilməsi, təbliği və tədrisi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

Kafedra əməkdaşları ulu öndərin 90 illik yubileyi ilə bağlı aşağıdakı işləri görmək əzmindədir.

1. Yubileylə bağlı Azərbaycan Tibb Universitetinin görəcəyi bütün tədbirlərdə yaxından iştirak etmək.
2. Fevral ayının əvvəli üçün başlanacaq dərslərin birinci mühazirəsini ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etmək.
3. Ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən foto-stend düzəltmək.
4. Yubileylə bağlı dövrü mətbuatda kafedra əməkdaşlarının məqalələrlə çıxış etməsini təmin etmək.
5. Televiziya kanallarında və radioda ulu öndərə həsr edilmiş verlişlərdə çıxış etmək.
6. Tələbə Elmi Cəmiyyəti xətti ilə ən fəal iki-üç tələbəyə konfranslarda çıxış etmək üçün mövzular vermək və onların icrasına nəzarət etmək.
7. Aprel ayında ulu öndərin 90 illik yubileyinə həsr edilmiş «Azərbaycan tarixi» kafedrasında elmi-praktik konfrans keçirtmək.

Azərbaycan tarixi kafedrasının əməkdaşlarının planlaşdırdığı bu işlərin icrası ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə tövhəsi olacaqdır.

**«Azərbaycan tarixi» kafedrası**

# Tədris-Terapevtik Klinikanın 2012-ci ilin yekunlarına dair hesabat toplantısı keçirildi

**Dünən ATU-nun Tədris-Terapevtik Klinikanın 2012-ci ilin yekunlarına dair hesabat toplantısı keçirildi.**



Tibbi personalın iştirak etdiyi toplantını klinikanın direktoru, professor Surxay Musayev açaraq burada dünya standartlarına uyğun maddi-texniki bazanın yaradıldığını vurğuladı. Qısa müddətdə görülən işləri, qazanılan uğurları, eləcə də həllini gözləyən problemləri diqqətə çatdırdı.

Klinikanın baş həkimi Cəfər Əhmədov keçən müddət ərzində xəstələrin qəbulu, müayinə və müalicəsi ilə bağlı statistik məlumatları özündə əks etdirən və klinikanın maddi-texiniki bazası, həkim kontingentinin say tərkibi, keçirilən yubiley tədbirləri barədə geniş hesabat məruzəsi ilə çıxış etdi.



O, bildirdi ki, hesabat dövründə universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun xüsusi tapşırığı əsasında mütəxəssislərimiz bölgələrə ezam olunmuş və onlara əməli məsləhətlər vermiş, lazımi köməklik göstərmişlər.

Toplantıda çıxış edən universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev ölkə prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı yekun nitqinə toxunaraq dedi ki, bu iradların təkcə icra başçılarına deyil, hər bir Azərbaycan vətəndaşına xidmət göstərən məmurdan tutmuş biz tibb işçilərinə qədər aidiyyatı var. Çünki sıralarımızda elələri vardır ki, onlar həkim-xəstə münasibətlərində kobudluğa yol verir, bəzən isə xəstələrlə məşğul olduqlarını bəhanə gətirərək tələbələrlə işi arxa plana keçirirlər.

O, özəl klinikaların geninə-boluna və reallıqdan uzaq təbliği nəticəsində aparıcı mütəxəssislərin, tanınmış professorların çalışdığı Tədris-Terapevtik Klinikanın kölgədə qalmasından təəssüfləndiyini dilə gətirdi. Belə halları həkimlərimizin özlərinə inam yarada bilməməsi, təbliğatın düzgün qurulmaması ilə əlaqələndirdi. Dəyişən dünyada təhsilin məzmununun yeniləşdiyini, Boloniya prosesinə qoşulduğumuzu bir daha xatırladaraq bu sahədə səmərəliliyin, tədrisin keyfiyyətinin artırılmasının vacibliyini önə çəkdi. Tələbələrin xəstələrlə təmasının qənaətbəxş olmadığına da toxunan S.Əliyev sadalanan nöqsanlara tezliklə son qoyulacağına inandığını söylədi.

S.Musayev elmi-tədqiqat, müalicə və diaqnostika işlərini özündə birləşdirən universitet klinikasında tərəqqinin göz qabağında olduğunu vurğulamaqla bərabər, iradlarını da toplantı iştirakçıları ilə bölüşdü. Klinikanın daxili nizam-intizamı, mühafizəsinin təşkili və beynəlxalq əlaqələri barədə də ətraflı məlumat verdi.

Sonra klinikanın aparıcı mütəxəssisləri professor Yaqub Qurbanov, dosent Nağdəli Zamanov və başqaları çıxış edərək baş həkimin hesabatını qənaətbəxş qiymətləndirdilər, belə bir klinikada çalışdıqlarından məmnunluqlarını bildirdilər.

**MƏNSUR**

# "DAŞ YUXULAR", YOXSA DAŞ YUXUSUNA GEDƏN YAZIÇI?

**Yazıçı Əkrəm Əylislinin Rusiyanın "Drujba narodov" jurnalında çap olunan "Daş yuxular" romanı artıq neçə gündür ki, ölkə ictimaiyyətinin böyük etirazına səbəb olub. Bu baxımdan da yaradıcı ziyalılar, o cümlədən elm - mədəniyyət xadimləri tərəfindən bu əsər geniş müzakirə obyektinə çevrilib.**



Bu məqsədlə fevralın 8-də ATU-nun Azərbaycan tarixi kafedrasında tədbir keçirilmişdir. Tədbiri açan kafedranın müdiri, professor Fəxrəddin Məmmədov dedi ki, əsərin məzmunu və ideyası məlumdur. Əsərin adından da göründüyü kimi müəllif özü daş yuxusuna gedib ki, iyirmi faiz torpaqlarımızın işğal olunduğunu, bir milyondan artıq qaçqınımızın yurd-yuvasından didərgin salındığını, otuz mindən çox şəhid verdiyimizi görmür. Natiq bu romanda tarixin bir- mənalı şəkildə saxtalaşdırılması faktının olduğunu və əsl həqiqətin gizlədildiyini vurğuladı. O baxımdan ki, romanda 1918-ci ildə Qafqaz İslam Ordusunun Azərbaycanı məhz erməni işğalından azad etməyə gəlməsi təhrif olunub. Yəni, Əkrəm Əylisli özünün "erməni təfəkküründə yaşatdığı" yalanları qələmə almaqla məsələnin əsl mahiyyətini gizlətməyə çalışır. Həmin dövrdə ermənilərin Naxçıvan, Zəngəzur, Dərələyəz bölgələrində, o cümlədən Şirvan, Ağsu, Şamaxı, Göyçay, Quba, Bakı və digər ərazilərdə həyata keçirdiyi iri miqyaslı soyqırmları nədənsə Ə.Əylislinin ermənilərə xidmət göstərən "beyninə" girməyib. Türk qoşunlarının Azərbaycana Vətənimizi məhz daşnaklardan xilas etməyə gəlməsi Ə. Əylislinin gözündən yayınıb.

"Təbib"qəzetinin baş redaktoru, şair- publisist Eldar İsmayıl çıxışında qeyd etdi ki, mənim bir yazıçı kimi əvvəldən Əkrəm Əylisliyə rəğbətim olmayıb. Çünki onun heç bir əsərində milli ruh, milli düşüncə və milli dəyərlərimizə hörmət görməmişəm. Əslində onun simasında Çingiz Ayıtmatovu təqlid etmək istəyində olan, lakin buna istedadı və qabiliyyəti çatmayan bir cızmaqaraçı görmüşəm. Məlum həqiqətdir ki, təqlidçilər nə qədər özlərini təbliğ etsələr də, bəşəri fikir arenasına çıxa bilməyiblər. Daha doğrusu, öz dəsti-xətləri olmadığına görə durduqları yerdə saymışlar.

Əkrəm Əylislini incidən nədir? O, nədən "yeraz"lara qarşı bu qədər qəzəblidir? Hətta təhqirə keçməkdən də vaz keçə bilmir. Onların ermənini amansızlıqla döydüyünü ürək ağrısı ilə təsvir edir... Belə bir adamın bu millətin içində yaşamağa haqqı varmı? Olmasa da, yaşayır və qan qardaşlarına xidmət edir. Əgər bir erməni yazıçısı təmsil etdiyi xalqı bu qədər kiçildərsə ermənilər onu daş-qalaq eləyərlər. Biz isə məhəl qoymadığımıza görə başımıza hər oyun gəlir...

Azərbaycan dili kafedrasının müdiri, dosent Akif Miriyev çıxışına milli məfkurəmizin böyük daşıyıcısı, mərhum xalq şairi Bəxtiyar Vahabzadənin hələ 1998-ci ildə Əkrəm Naibovun dönüklüyünə, satqınlığına həsr edilmiş şeiri ilə başladı. O, müharibənin bitmədiyi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində ardıcıl iş aparıldığı vaxtda belə bir əsərin ortaya çıxarılmasını Vətənə, xalqa xəyanət adlandırdı.

Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev 12 yaşından tanıdığı Əkrəm Naibovun aldığı mükafatlara layiq olmadığını bildirdi: "Bu millətin çınqılını da, külünü də, gülünü də, qanqalını da sevin Allah eşqinə", "Bizi bölgələrə, məhəllələrə, tayfalara bölənə lənət" deyən, ürəyi daim Vətən eşqiylə döyünən, "Ağzımda dilim də Azərbaycandır", "Məndən ötrü Ermənistan yoxdu, yox"-deyə hayqıran Eldar İsmayıl dövlət mükafatlarından kənarda qalıb. Erməni sevgisini gizlətməyən, nadürüstlüyü, qanının xarablığı şübhə doğurmayan Əkrəmin Vətənin, xalqın ali təltiflərini daşımağa haqqı çatmır".



Fotolar Cənnətalı Çingizindir

"Daş yuxular" əsəri ilə bağlı İqtisadiyyat və hüququn əsasları kafedrasının müdiri, dosent Yavər Vəliyev, Azərbaycan dili kafedrasının dosenti Məfkurə Hüseynova, əczaçılıq fakültəsinin dekanı Tahir Süleymanov və digər etirazını bildirənlər özünü xalqa, millətə qarşı qoymağın heç vaxt bağışlanmadığını dedilər. Tədbirdə suyunu içib, çörəyini yediyi Vətənə arxa çevirməklə bu torpaq üzərində yaşamaq haqqını itirən nankor yazıçının Azərbaycan vətəndaşlığından məhrum olunmasını da tələb etdilər. Çünki Ə.Əylisli xalqına iftira atmaq və həqarət etməklə təkcə azərbaycanlılara deyil, bütün insanlığa, bəşəri dəyərlərə xəyanət edib. O, bu xəyanətin cəzasını çəkməlidir. Məhz bunu və xalqın etirazlarını nəzərə alan möhtərəm prezidentimiz İlham Əliyev Ə.Əylislinin "Xalq yazıçısı" adından və Prezidentin fərdi təqaüdündən məhrum olunması barədə sərəncam imzalayıb. Bu sərəncamlar cəmiyyətdə çox yüksək qarşılanıb və xalqımız prezidentin bu qərarını müsbət hal kimi dəyərləndirirlər.

**Arif MƏMMƏDLİ**

# İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin qanköçürmə müəssisələrinin rəhbərləri Bakıda toplaşmışlar

**Fevralın 14-də Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin qanköçürmə müəssisələri rəhbərlərinin 3-cü iclası öz işinə başlamışdır.**



Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə İƏT-ə üzv olan 10 ölkədən 8-nin nümayəndələri iştirak etmişlər.

Qan xidməti rəhbərlərinin əvvəlki iclasları İran İslam Respublikasının paytaxtı Tehranda və Türkiyənin paytaxtı Ankarada keçirilmişdir. Bu il isə İƏT-də sədrlik Azərbaycana keçmişdir.

İclası giriş sözü ilə səhiyyə nazirinin müavini Elsevər Ağayev açaraq Azərbaycanda qan xidməti sahəsində görülən işlərdən danışmışdır. Bildirmişdir ki, insanların sağlamlıqlarının qorunması Azərbaycan dövlətinin prioritet vəzifəsidir.

Ölkəmizdə qan xidmətinə xüsusi diqqət yetirildiyini bildirən E.Ağayev məlumat vermişdir ki, Milli Məclis "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Bu qanun Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci ilin mayın 3-də təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli qərarı ilə "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı (2006-2010)" təsdiq edilmişdir.

Nazir müavini ölkəmizdə qan xidməti göstərən müəssisələrin tibbi avadanlıq, qan torbaları və qanı yoxlamaq üçün reaktivlərlə dövlət tərəfindən tam təmin olunduğunu diqqətə çatdırmışdır. Vurğulamışdır ki, dövlət proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində qan donorlarının sayı 2 dəfədən çox artmış, qan komponentlərinin miqdarı, keyfiyyəti və təhlükəsizliyi xeyli yüksəlmişdir. Azərbaycanda könüllü donorların sayının əhəmiyyətli dərəcədə artması pullu donorluqdan tam imtina edilməsinə imkan yaratmışdır.

Tədbirdə İƏT-in baş katibi Şamil Ələsgərov yaradılan şəraitə görə Azərbaycan dövlətinə minnətdarlıq etmiş, iclasda qan xidməti üçün çox vacib məsələlərin müzakirə olunacağını bildirmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadə, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədov və B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Soltan Əliyev çıxış edərək qanköçürmə sahəsində əməkdaşlıq baxımından İƏT-in böyük rol oynadığını qeyd etmişlər.

Bildirilmişdir ki, qan xidmətinin dinamik inkişafı olmadan cərrahiyyə, reanimasiya, doğuşayardım, hematologiya, onkologiya, travmatologiya kimi sahələrdə ixtisaslaşdırılmış tibbi yardımın uğurla həyata keçirilməsi mümkün deyildir.

Sonra İƏT-ə üzv ölkələrin qanköçürmə müəssisələri rəhbərlərinin hesabatları dinlənilmişdir.

Fevralın 15-dək davam edəcək iclasda İƏT-ə üzv ölkələrdə könüllü donorların cəlb edilməsi və saxlanılması, transfuzion terapiya, informasiya texnologiyalarının qan xidməti sahəsində tətbiqi və plazmanın fraksiyalaşdırılması kimi məsələlərlə bağlı müzakirələr aparılacaqdır.



# Elm fədaisi

## *Arif Əfəndiyev - 70*

**Azərbaycan Tibb Universiteti Bioloji kimya ka-fedrasının müdiri - əməkdar müəllim, biologiya elmləri doktoru, professor Arif Mustafa oğlu Əfəndiyevin 70 yaşı tamam oldu.**



A.Əfəndiyev 1943-cü ilin yanvar ayının 1-də Şamaxı rayonunda anadan olmuşdur. Onun atası Mustafa Məhyəddin oğlu ixtisasca mühəndis-neftçi idi, keçən əsrin 30-cü illərində Stalin represiyasının ölkədə tüğyan etdiyi dövrdə əsassız represiyaya uğradılaraq, kommunist partiyası üzvlüyündən azad edilmiş və çox sevdiyi neft sənayesi əməkdaşlığın-dan ayrılaraq, həyat yoldaşı Səkinə xanımla birgə Şamaxı rayonuna köçmüş, bir müddət ailəsi ilə bir-likdə Səkinə xanımın baş həkim vəzifəsində işlədiyi Çuxuryurd kəndində yaşamışdır.

Nəhayət, 1946-cı ildə Mustafa Əfəndiyevin gunahsızlığı sübuta yetirilmiş və o, yenidən Bakı şəhərinə köçərək, neftçıxarma idarəsinin rəisi vəzifəsində fəaliyyətini davam etdirmişdir.

Arif Əfəndiyev ilk təhsilinə 1949-cu ildə Bakı şəhərindəki 6 N-li orta məktəbdə başlamışdır. Sonralar o, 189 N-li orta məktəbə keçmiş və 1959-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirərək, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti - ATU) Əczaçılıq fakültəsinə daxil olmuşdur.

O, tələbəlik illərində əla qiymətlərlə oxumaqla bərabər, elmi-tədqiqat işlərinə də böyük maraq göstərirdi. Buna nəzərə alan institut rəhbərliyi 1964-cü ildə ali təhsilini başa vuraraq «əczaçı» ixtisası almış Arif müəllimi elə institutun özündə - bioloji kimya kafedrasında işlə təmin etmək haqqında qərar vermişdir və o, həmin ildən adı çəkilən kafedranın baş laborantı vəzifəsində əmək fəaliyyətinə başlamış, 1966-cı ildə isə aspiranturaya qəbul edilmişdir. Həmin illərdə Arif müəllim kafedrada əvəzçilik üzrə tədris işəlri ilə də məşğul olurdu. 1969-cu ildə aspiranturada təhsil müddəti başa çatan A.Əfəndiyev Bioloji kimya kafedrasının assistenti vəzifəsinə qəbul edilmişdir.

Qeyd etmək istərdik ki, Arif müəllimin hələ baş laborant vəzifəsində işləyərkən apardığı elmi-tədqiqat işinin nəticələrinə əsasən yazdığı ilk məqaləsi «Azərbaycan Elmlər Akademiyasının Məruzələri» kimi nüfuzlu elmi jurnalda çap edilmişdir. O, aspiranturada təhsil aldığı dövrdə elmi işlərini xronik iltihabi xəstəliklərin müalicəsində tətbiq edilən pirogen xassəli (qızdırma törədən) dərman vasitələrinin təsir mexanizmlərinin öyrənilməsinə həsr etmiş və 1970-ci ildə «Askorbin turşusu sintez edən (dovşanlar) və sintez etməyən (dəniz donuzları) heyvanlarda pirogenalın C vitamini mübadiləsinə və qan serumunun zülal tərkibinə təsiri» mövzusunda dissertasiya müdafiə edərək, biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Arif müəllim 1974-cü ildən kafedranın dosenti vəzifəsinə seçilmiş, 1981-1984-cü illərdə kafedranın müdiri vəzifəsini icra etmişdir.

1984-cü ildə aparılan təhsil islahatı ilə əlaqədar olaraq, bioloji kimya kafedrası üzvi kimya kafedrası ilə birləşdirilmiş və Arif müəllim bundan sonrakı bir neçə il ərzində «Bioüzvi və bioloji kimya» kafedrası adı altında fəaliyyət göstərən kafedranın dosenti olmuşdur. Həmin illər ərzində intensiv elmi-tədqiqat işləri aparan Arif müəllim 1986-cı ildə doktorluq dissertasiyası üzərində işini tamamlayaraq, SSRİ Tibb Elmləri Akademiyasının ET Qidalanma İnstitutunun nəzdindəki dissertasiya şurasında müdafiə etmişdir.

Qeyd etmək lazımdır ki, A.Əfəndiyevin «Polien antibiotiklərinin böyrəklərdə və qanda prostaqlandin mübadiləsinə, lipidlərin peroksidləşmə yolu ilə oksidləşməsinə və orqanizmin antioksidant sistemi fermentlərinin aktivliyinə təsirinin yaş xüsusiyyətləri və onların korreksiya üsulları» mövzusunda doktorluq dissertasiyasının əsas müddəalarını əhatə edən elmi məqalələrin əksəriyyəti xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap edilmişdir. O, dəfələrlə müxtəlif ölkələrdə (Yuqoslaviya, Almaniya, Niderland və s.) keçirilən elmi qurultay və konfransların nümayəndəsi olmuş və dərin məzmunlu elmi məruzələrlə çıxış etmişdir.

Onun elmi məqalələri bir sıra inkişaf etmiş ölkələrin (ABŞ, İngiltərə, Niderland, Çexiya, Bolqarıstan, Yuqoslaviya və s.) alimlərinin elmi marağına səbəb olmuş, həmin ölkələrdən bu elmi işlərin müştərək davam etdirilməsi haqqında təkliflər alınmışdır və bunun sayəsində bioloji kimya kafedrası ilə bir sıra xarici ölkələrin nüfuzlu elmi mərkəzlərinin əməkdaşlığı bu gün də davam edir.

A.Əfəndiyev 1987-ci ildə fəaliyyətini yenidən sərbəst surətdə davam etdirən Bioloji kimya kafedrasının müdiri vəzifəsinə seçilmişdir və indiyə qədər bu vəzifədə çalışır. O, 1989-cu ildə professor elmi adı almışdır. Arif müəllim adı çəkilən kafedraya rəhbərlik etməklə bərabər, həmin kafedranın nəzdində fəaliyyət göstərən Problem elmi-tədqiqat laboratoriyasının da rəhbəridir. Hazırda professor A.Əfəndiyevin elmi tədqiqatlarının əsas istiqaməti xronik böyrək çatışmazlığı və müxtəlif mənşəli osteoporozlar zamanı orqanizmdə baş verən dəyişikliklərin biokimyəvi mexanizmlərinin tədqiqinə yönəlmişdir. Bu gün kafedrada çalışan əməkdaşların əksəriyyəti elmi-pedaqoji kadr kimi məhz Arif müəllimin rəhbərliyi ilə yetişən şəxslərdir. İndiyə qədər onun rəhbərliyi altında 22 namizədlik (fəlsəfə doktorluğu) və 3 doktorluq dissertasiyası işlənərək müdafiə edilmişdir və hazırda 6 dissertasiya işi üzrə tədqiqatlar davam etdirilir.

Arif müəllimin qələmindən 190-dan artıq elmi əsər, o cümlədən dərsliklər, dərs vəsaitləri və monoqrafiyalar çıxmışdır. O, daim biokimya fənninin tədrisinin keyfiyyətcə yaxşılaşdırılmasına, tələbələrin yüksək səviyyəli dərsliklər və dərs vəsaitləri ilə təmin edilməsinə çalışır. Arif müəllim 1974 və 1989-cu illərdə iki dəfə çap edilmiş əsaslı "Bioloji kimya" dərsliyinin, 2002-2010-cü illərdə 3 dəfə çapdan çıxmış 4 cildlik «İnsan biokimyasının əsasları», 2007-ci ildə çap edilmiş «Klinik və patoloji biokimya» dərsliklərinin həmmüəlliflərindən biridir. Bunlardan əlavə, Arif müəllim işlədiyi kafedranın əməkdaşları ilə birlikdə Azərbaycan və rus dillərində praktik dərs vəsaitləri, həmçinin 21 tədris-metodik vəsait yazıb çap etdirmişdir. O, rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birgə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cü ildə elan etdiyi ilk müsabiqənin qalibi olmuşdur. Bunun sayəsində Elm Fondunun ayırdığı qrant kafedranın müasir tipli analitik aparatlarla təmin edilməsinə sərf edilmiş və burada müasir səviyyədə elmi-tədqiqat aparılmasına şərait yaranmışdır.

Professor A.Əfəndiyev 2000-ci ildə Avropa Biokimyaçılar Cəmiyyətləri Konfederasiyasında təşkil edilmiş «Biokimyanın tədrisi» komissiyasının MDB ölkələrindən seçilmiş yeganə üzvüdür. O, uzun müddət respublika biokimyaçılar cəmiyyətinin elmi katibi vəzifəsini yerinə yetirmişdir.

Arif müəllimin fədakar əməyi ölkəmizin dövlət rəhbərliyinin də diqqətindən yayınmamışdır və o, 1984-cü ildə «SSRİ Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilmiş, 2010-cü ildə «Əməkdar müəllim» fəxri adına layiq görülmüşdür.

Arif müəllim elə indi də böyük səylə elmi yaradıcılığını və pedaqoji fəaliyyətini davam etdirir.

Arif Mustafa oğlu Əfəndiyevi anadan olmasının 70 illiyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı və yeni-yeni nailiyyətlər arzu edirik.

*«Azərbaycan Tibb Jurnalı»nın redaksiya heyəti,*
*Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının əməkdaşları*

# OSTEOARTROZ: müalicə və profilaktikasına müasir baxış

**Yanvarın 31-də Azərbaycan travmatoloqlar və ortopedlər Assosasiyasının prezidenti, tibb elmləri doktoru Y.Cəlilovun təşkilatçılığı ilə Bakı şəhərinin praktiki həkimləri üçün geniş konfrans təşkil olunmuşdur. «HİLTON BAKU» otelində keçirilən konfrans müasir problem olan oynaq ağrılarının əsasını təşkil edən osteoartroza həsr edilmişdir.**



Tədbiri giriş nitqi ilə açan Y.Cəlilov iştirakçıları və qonaqları salamladı və ilk sözü Moskvadan gəlmiş professor O.Mendelə verdi. O, problemin patogenezinə, müasir müalicə və profilaktikasına toxunaraq osteoartrozu hərtərəfli və geniş mühazirə ilə dinləyicilərə çatdırdı. Özünün 30-illik təcrübəsinə əsaslanaraq qeyd etdi ki, hal- hazırda ABŞ və Avropa ölkələrində 75 milyon insan 20-30%-i xroniki ağrıdan əziyyət çəkir, 60 yaşdan yuxarı əhalinin 60%-i xroniki ağrı ilə müşahidə olunur. Ağrıların gündəlik həyat tərzinə təsirinə gəldikdə isə professor qeyd etdi ki, 19%-i xroniki ağrıya görə xəstələr iş fəaliyyətini dayandırırlar, 26%-i xəstələrin əmək fəaliyyətinə mənfi təsir edir, 40%-i xəstələrdə isə ağrı onların normal həyat fəaliyyətinə imkan vermir. O, qeyd etdi ki, ağrıların lokalizasiyası ən çox oynaqlarda olan osteoartrozlar zamanı baş verir- 34%, ikinci-yerdə isə 15% xəstələrdə diskogen ağrılar olur. Ağrılarla mübarizə zamanı 30 milyon xəstə hər gün qeyri steroid iltihab əleyhinə preparat qəbul edir, həkimlər hər il 500 milyondan çox resept yazırlar və 65 yaşdan yuxarı 20% xəstələr mütəmadi olaraq müxtəlif preparatlar qəbul edirlər. Qeyd etmək lazımdır ki, hal-hazırda xəstələr ağrılara qarşı müxtəlif qeyri steroid iltihab əleyhinə preparatlar qəbul edirlər, lakin bu xəstələr müxtəlif ağırlaşmalarla üzləşirlər, ona görə seçim edən zaman ideal QSİƏP seçilməlidir. QSİƏP-lər aşağıdakı kriteriyalara cavab verməlidirlər:

*- Yaxşı biomənimsənilmə (plazmada sürətlə pik konsentrasiyasına nail olma- tez ağrıkəsici effekt)*

*- Uzunmüddətli təsiri və sabit farmakodinamika (qəbul gündə 1 dəfə)*

*- Həm kəskin, həm də xroniki ağrı zamanı sübut edilmiş effektlivlik*

*- SOG-2-yə qarşı selektivlik (MBT- ağırlaşmalar və əməliyyatdan sonra qanaxma riskinin azalması)*

*- "Ənənəvi " QSİƏP ilə müqayisədə kardioaskulyar ağırlaşmalar riskinin minimal olması*

Professor O.Mendel özünün çox illik təcrübəsinə əsaslanaraq belə xəstələrə ARTRA preparatını qəbul etməyi məsləhət gördü. Preparat 500ml tablet şəklində buraxılır, qəbul qaydası bir tabletkadan gündə 2 dəfə, 3-4 həftə müddətində, sonradan isə gündə bir tabletdən 6-ay müddətində qəbul etmək lazımdır. Bu preparat ABŞ-ın istehsalı olub, Azərbaycanda nümayəndəliyi olan UNIPHARM, INC tərəfindən apteklərdə geniş satılır.

Konfransda çıxış edən Azərbaycan revmatoloqlar Assosasiyasının prezidenti, professor E.Abbasov, professorlar N.Huseynov və Ə.Əhmədzadə qeyd etdilər ki, bu preparat rəhbərlik etdikləri klinikalarda geniş istifadə olunur və xəstələrə müsbət təsir göstərir. Konfransı yekunlaşdıran Y.Cəlilov bildirdi ki, yaxın vaxtlarda Respublikanın digər bölgələrində çalışan praktiki həkimlərə kömək məqsədilə növbəti konfrans daha geniş şəkildə keçiriləcəkdir.

**Ə.ƏHMƏDZADƏ,**
*ATU-nun travmatologiya və ortopediya kafedrasının müdiri, AzTOA-nın vitse prezidenti, professor*

# Hazırlıq kurslarının müdavimlərinə yeni töhvə

**Universitetimizdə yeni metodik və dərs vəsaitlərinin, həmçinin dərsliklərin ingilis dilində nəşr olunması artıq ənənəyə çevrilmişdir. Bu da universitetimizdə neçə ilərdən bəri Azərbaycan və rus bölmələri ilə yanaşı ingilis dilli bölmənin də fəaliyyət göstərməsi ilə əlaqədardır.**

Təsadüfi deyildir ki, bu bölmədə təhsil alan əcnəbi tələbələrin sayı ildən ilə sürətlə artır və müqayisə üçün deyə bilərik ki, bəzi hallarda rus bölməsində təhsil alan tələbələrin sayını ötür. Fərəhlədirici haldır ki, bu il dərs ilində Universitetin hazırlıq kurslarının ingilis bölməsində hər birində orta hesabla 15 müdavim olmaqla qrupların sayı 7-yə çatmışdır. Heç şübhəsiz ki, bu günün müdavim və tələbələri olan əcnəbi gənclər yaxın gələcəkdə nəinki öz ölkələrində, həm də dünyanın digər ölkələrində müxtəlif tibb müəssisələrində




çalışacaqlar. Fikrimizcə, fənn müəllimləri tələbələrə tədris proqramlarını aşılamaqla bərabər ölkəmizin mədəniyyəti və tarixi haqqında həqiqətləri də onlar vasitəsilə dünyaya yaymaq imkanına malikdir. Bizim hər birimiz bu potensial imkandan maksimum istifadə etməyə çalışmalıyıq.

Bu nöqteyi nəzərdən Tibbi fizika və informatika kafedrasının əməkdaşları professor Z.Tağıyev və f.r.e.n. Ş.Əmirov tərəfindən yazılmış və yeni nəşr olunmuş "Elementar Fizika" (ingilis dilində) adlı dərs vəsaiti təqdirə layiqdir. Kitabın rəyçiləri AMEA-nın Fizika İnstitunun "Nüvə tədqiqatları" laboratoriyasının rəhbəri, fizika-riyaziyyat elmləri doktoru, professor Ş.Nağıyev, BDU-nun "Ümumi fizika" kafedrasının professoru R.Qasımova, f.r.e.n.Ş.Bayramov və p.e.n. V.Haçıyevdir. Vəsait AR Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının "Fizika" bölməsinin qərarı əsasında "Təbib" nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Kitabın üzlüyünün arxa səhifəsində ingilis dilində Xocalı qətlyamı haqqında verilmiş məlumat fikrimizcə müəlliflərin ölkəmiz haqqında həqiqətləri dünyaya yaymaq istəyinin nümunəsidir. Biz isə hörmətli oxuculara həmin məlumatın tərcüməsini xatırladırıq; "Xocalı hadisəsi bəşəriyyətin ən böyuk faciəsidir. Azərbaycan Respublikasının Xocalı şəhəri və onun əhalisi 1992-ci il fevralın 26-da erməni işğalçıları tərəfindən tamamilə darmadağın edilmuşdir. Xocalı qətlyamı Azərbaycan xalqının qan yaddaşıdır".

Məlum olduğu kimi Universitetimizin ingilis dilli bölməsində əsasən Türkiyə, İran, İraq, Suriya, Fələstin və digər ölkələrin vətəndaşları təhsil alırlar. Ümid edirik ki, tələbələrin stolüstü kitabı olan bu dərs vəsaiti öz məzmunu ilə yanaşı, Xocalı haqqındakı yazını da özü ilə ölkəmizin sərhədlərindən uzaqlara aparacaq və o qanlı gecənin harayını neçə-neçə təhsil və elm adamına eşitdirəcəkdir. Haqqında danışdığımız dərs vəsaiti AR TQDK-nın fizika fənni üzrə proqramına uyğun olaraq Universitetimizin hazırlıq kurslarının dinləyiciləri üçün nəzərdə tutulmuşdur. Kitabdakı material 22 fəsildən ibarət olmaqla orta məktəb fizika kursunu tam əhatə edir. Vəsaidə nəzəri biliklərin əyaniliyi üçün 155 şəkildən istifadə olunmuşdur. Dərs vəsaiti 292 səhıfədən ibarətdir və ona fizikadan məsələ həllində istifadə oluna biləcək 580 düstur daxil edilmişdir. Kitabın səciyyəvi xüsusiyyətlərindən biri odur ki, düstur və şəkillər hər fəsil üçün fərdi olaraq nömrələnmişdir və hər fəslin sonunda ən vacib tərif və düsturlar ayrıca verilmişdir. Kitabın elmi cəhətdən müasir səviyyədə yazılması göstərir ki, müəlliflər onun yazılması üçün bu sahədə indiyədək Azərbaycan, rus və ingilis dillərində mövcud olan bir çox ədəbiyyatlardan istifadə etmişlər. Qeyd edək ki, bu kitabın müəlliflərindən biri olan Ş.Əmirovun birqə müəllif olduğu və ingilis dilində yazılmış bir neçə dərs vəsaiti əvvəllər də tələbələrin istifadəsinə verilmişdir.

Dərs vəsaiti hazırlıq kurslarının dinləyiciləri üçün nəzərdə tutulsa da, ondan orta məktəb, litsey və kolleclərin şagird və müəllimləri, həmçinin ixtisas yönümlü mütəxəssislər də faydalana bilərlər.

**V. HACIYEV,**
*kafedranın baş müəllimi*

# Vestminster Universiteti 2012-ci ilin qalibidir

**Böyük Britaniyanın Vestminster Universiteti Tempus İnnovasiya proqramı çərçivəsində Tibbi Molekulyar Biologiya üzrə Cənubi Qafqaz Universitetləri ilə birlikdə beynəlxalq əməkdaşlığa görə nüfuzlu "TIMES HIGHER EDUCATION" mükafatına layiq görülmüşdür. Mükafat 29 noyabr 2012 -ci ildə Londonun Grosvenor Haus Otelində rəsmi mərasimdə təqdim edilmişdir.**

Bu proqram tibbi molekulyar biologiya üzrə Vestminster Universitetində yaranmışdır və bu sahədə ilk beynəlxalq müştərək pilot layihədir. Layihədə 6 Qafqaz və dörd Avropa universitetləri iştirak edir. Avropa İttifaqı tərəfindən TEMPUS proqramı çərçivəsində maliyyəşdirilir. Layihədə innovasiya və ənənəvi üsullar birlikdə təhsil sisteminə tətbiq olunur. Əməkdaşlığın məqsədi tibbi molekulyar biologiyanın tədris və tədqiqat işləri üzrə bilik mübadiləsidir. Yeni layihə bir regional proyekt kimi Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilmişdir. Layihə çərçivəsində Vestminster Universiteti ilə aparıcı Cənubi Qafqaz universitetləri partnyor əlaqələri daha da gücləndirir.

Vestminster Universitetinin Təbii Elmlər Fa-kültəsinin dekanı, professor J.Lyuis demişdir: "Mən çox şadam ki, bizim rəhbərlik etdiyimiz mürəkkəb layihə qalib gəlmişdir. Hal-hazırda Vestminster Universiteti ən yaxın illərdə biz tərəf-müqabillərimiz ilə sıx əməkdaşlığa, yeni tələbələrin iştirakına və yeni proyektlərin yaranmasına ümid edirik."

Layihə iştirakçıları aşağıdakı partnyor ali təhsil ocaqlarıdır: Vestminster Universitet ( Böyük Britaniya), L'Akvilla Universiteti (İtaliya), Brest Universiteti (Fransa), Tbilisi Dövlət Universiteti (Gürcüstan), Kutaisi Dövlət Universiteti (Gürcüstan), Azərbaycan Tibb Universiteti (Azərbaycan), Bakı Dövlət Universiteti (Azərbaycan), Yerevan Tibb Universiteti (Ermənistan) və Yerevan Dövlət Universiteti (Ermənistan). ATU-da layihəyə rəhbərlik edən İmmunologiya kursunun rəhbəri professor G.Nəsrullayeva olmuşdur.

Professor Lyuis əlavə etmişdir ki, Cənubi Qafqazda nəzərdə tutulan proyektlərdə institutlar ilə əlaqələrin möhkəmləndirilməsi, elektron təhsil, virtual laboratoriyaların istifadəsi və elmi tədqiqatlar üzrə əməkdaşlıq əldə olunacaq.

Vestminster Universitetində 150 ölkədən 20 000-dən artıq tələbə təhsil alır.

Gələcəkdə islahatların aparılması, müxtəlif sahələrdə elmi-tədqiqat layihələrinin və yeni istiqamətlərin universitet tərəfindən maliyyəşdiririlməsi nəzərdə tutulur. Universitetin tələbələri yüksək peşəkarlığa, beynəlmiləlçiliyə, əmək qabiliyyətinə malikdir. Vestminster Universitetinin ATU ilə müştərək proqramı 2012-ci ilin nüfuzlu "TIMES HIGHER EDUCATION" mükafatına layiq görülmüşdür.

Sevindirici haldır ki, bununla bərabər Azərbaycan Tibb Universiteti TEMPUS çərçivəsində üç cari layihədə fəal iştirak edir. Ümüd edirik ki, ATU bundan sonra da beynəlxalq layihələrdə qalib gələcək.

**Arifə BAĞIROVA,**
*Beynəlxalq Əlaqələr şöbəsinin əməkdaşı*

# QİYMƏTLİ DAŞLAR MÜALİCƏ EDİR

## XALSEDON

**Kvarsın yarımşəffaf, gizli kristallik növü olan minerallar qrupu xalsedon dlandırılır. Xalsedonun tərkibi Si O2-dir və onda Fe, Al, N2O (1-1,5%) və sair qatışıqları olur. Ona görə də tilsimi yaxşı bilən adamlar xalsedonu «büllurun anası» sayılan əqiq və onıksə bərabər göstərirlər.**

Xalsedon qabıq, böyrəkvarı, salxım şəkilli aqreqatlar, damarcıqlar, konkresiyalar və sair əmələ gətirir. O, mum parıltılıdır və müxtəlif rənglərdə olur. Çəhrayı rəngli xalsedon-serdolik, qırmızımtıl-sarı - karneol, qonurqırmızı - sarder, yaşıl-xrizopraz, boz-mavi - safirin və sair adlandırılır. Naziklaylı xalsedon əqiq, zolaqlı xalsedon isə oniks adlanır.

Bu daşın «xalsedon» adlandırılmasının Kiçik Asiyada yer adı olan Xalkedonla əlaqədar olması ehtimal olunur. Xüsusi gözəl şəkli, yaxud rəngi olan xalsedon yarımqiymətli məmulat daşıdır və abraziv materialdır. Dar mənada, adətən, mavi-süd, yaşılımtıl-mavi, sarımtıl rəngli solğun tona malik daşlar xalsedon adlandırılır. Xalsedon (xalkidon) İncilin təsvirində apokalipsisdə (Əhdicədiddə) ayrıca daş kimi qeyd edilir. Mavi xalsedon insanlara hələ antik dövrdən məlumdur. Sardoniks və karneola bərabər mavi xalsedon çox vaxt daşqaşların hazırlanmasında istifadə olunurdu.

Xalsedon yataqları Şərqi Zabaykalyedə, Uralda, Krım vilayətində, Azərbaycan respublikasının Göranboy rayonu ərazisində mövcuddur.

Belə hesab edilir ki, xalsedon və ilk növbədə onun mavi növləri öz sahibini qəzəbli hiddətlənmədən və bədbinlik tutmasından azad etməyə qadirdir. Xalsedon nevroz və depressiya ilə mübarizə aparmağa kömək göstərir

Qədim manuskriptlərə görə xalsedon da əqiq kimi dəniz səyyahları üçün qoruyucu idi. O, həmçinin kişilərin ürəyini qadınlara doğru cəlb edən məhəbbət daşı hesab edilirdi. Güman edilir ki, xalsedon öz həyatını qurban verən, eyni zamanda bir-birilə zidd olan əsil qadını özünə çəkir. Monqollar Qobi səhrasında tapılan mavi xalsedonu «sevinc daşı» adlandırırlar və inanırlar ki, bu daşlar kədəri rədd etmək və yaxşı əhvalruhiyyə yaratmaq qabiliyyətinə malikdir. Mavi xalsedonla bəzədilmiş zinət əşyaları qorxunu aradan qaldırmağa, sahibini öz gücünə inandırmağa qadirdir.

Xalsedonun insanın onurğa boyunca yerləşən aktiv mərkəzlərə təsiri onun rəngindən asılı olaraq müxtəlifdir.

Xalsedonla bəzədilmiş zinət əşyalarının, əsasən Oxatan bürcündə doğulanların taxması məsləhət görülür.

**Sahib ƏHMƏDOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin I kurs, 763[a] qrup tələbəsi İsmayıllı Şəhruzə Rafiq qızının adına verilmiş tələbə bilcti itdiyi üçün ctibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 165[b] qrup tələbəsi Qasımlı Nilufər Abbas qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# XOCALI DƏRDİ

**Saşa ƏLİYEV**

*(Eldar İsmayılın "Xocalının dərdi haray" şeirinin təsiri ilə)*

Ay Eldar İsmayıl, şeir oxudun,
Dağladı sinəmi Xocalı dərdi.
Qeyrətdən, namusdan çələng toxudun,
Dağladı sinəmi Xocalı dərdi.

Namərdə, nadana dövran quruldu,
Soyqırım təbili hardan vuruldu?
Güllə-boran oldu, insan qırıldı,
Dağladı sinəmi Xocalı dərdi.

İnsanın harayı göyə ucaldı,
Cavanlar vədəsiz, vaxtsız qocaldı.
Ədalət sarsıdı, xain güc aldı,
Dağladı sinəmi Xocalı dərdi.

Zillətə qərq oldu işıqlı dünya,
Dillənmədi, susdu, lal oldu dünya.
Çox ölkə görmədi olanı guya,
Dağladı sinəmi Xocalı dərdi.

Tanrım, həqiqətə güc, yol ver görək,
Düşmənə qazılsın qoy qəbir-xərək.
Bir-birimiz ilə əl-ələ verək,
Dağladı sinəmi Xocalı dərdi.

29.02.2012

# On beş dəqiqəlik günəş vannası artritdən xilas olmaq üçün ən yaxşı vasitədir

**Günəş şüalarının bol olduğu ölkələrdə yaşayan adamlar oynaqlarda şiddətli ağrılarla müşahidə olunan revmatoid artritdən daha az əziyyət çəkirlər. Amerikalı alimlərin fikrincə, burada əsas ideya günəş şüalarının təsirindən yaranan D vitamininin orqanizmə müsbət təsir etməsindədir.**

Revmatoid artrit xəstəliyi oynaqlarda şiş və güclü ağrılarla müşahidə olunur. Bu xəstəliyə daha çox qadınlar arasında rast gəlinir.

Harvard Tibb Məktəbinin əməkdaşlarının qeyd etdikləri kimi, onlar qadınların iki qrupu üzərində müşahidələr aparmışlar. Təcrübə iştirakçılarının sağlamlıq vəziyyəti onların yaşadıqları yerdə ultrabənövşəyi şüalanmanın səviyyəsi ilə müqayisə edilmişdir. Məlum olmuşdur ki, ABŞ-ın ən günəşli hissələrində yaşayan və ən çox günəş şüası qəbul etmiş qadınlar arasında artritdən əziyyət çəkənlərə günəş altında daha az vaxt keçirənlərə nisbətən 21 faiz az rast gəlinmişdir.

D vitamininə gəldikdə isə onun dağınıq skleroz kimi başqa immun nasazlıqları ilə əlaqəsi olduğu müəyyən edilmişdir. Bu vitaminin immun hüceyrələrinə təsiri mümkündür. Hazırda D vitamininin immun sisteminin aqressiv hücumlarına cavab verməyə qadir olub-olmadığı üzrə laboratoriya tədqiqatları aparılır.

Hələlik isə mütəxəssislər bu ağır oynaq xəstəliyindən xilas olmaq üçün yayda günəş altında 15 dəqiqə olmağı məsləhət görürlər.

## Təbrik



*ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Firdovsi Məmmədovun 60 yaşı tamam oldu. Onun ömür yolunun çox hissəsi ölkəmizin mülki müdafiəsində keçib. Yaşadığı bu illər ərzində o, Silahlı Qüvvələrin tərkibində müxtəlif vəzifələrdə çalışmış, hərbidəki fəal xidmətlərinə görə bir sıra mükafat və fərmanlarla təltif edilmişdir.*

*O, hazırda universitetimizin müharibə və əmək veteranları təşkilatının sədri olmaqla yanaşı, həm də universitetin Həmkarlar İttifaqı Komitəsinin fəal üzvü kimi üzərinə düşən hər bir vəzifəni layiqincə yerinə yetirir.*

*F.Məmmədovu yubileyi münasibətilə çalışdığı kollektiv, doğmaları və dostları təbrik edir, ona həyatda ən şirin nemət olan cansağlığı arzulayırlar.*



*Bu fidan balanı-balaca Simanı 2 yaşının tamam olması münasibətilə Cavid babası, nənələri Sima və Nailə xanım, bütün doğmaları səmimi qəlbdən təbrik edir, onun xoşbəxt böyüməsini arzulayırlar!*

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi və Əsaslı kitabxananın əməkdaşları

**Məhərrəm Bəşirovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin kollektivi, Azərbaycan dili, ümumi gigiyena və ekologiya kafedralarının əməkdaşları bioloji kimya kafedrasının dosenti Fuad İslamzadəyə anası

**Səlimə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq fakültəsinin dekanlığı , əczaçılıq kimyası, ümumi və toksikoloji kimya, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili kafedralarının əməkdaşları dosent Cəmilə Yusifovaya atası

**Yusif Yusifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın professoru İlham Şahmuradova anası

**Gülüş Zülfüqarovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının dosenti Məfkurə Hüseynova ailə üzvləri ilə birlikdə tibbi biologiya və genetika kafedrasının professoru İlham Şahmuradova anası

**Gülüş Zülfüqarovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan dili və ümumi gigiyena və ekologiya kafedralarının əməkdaşları ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Məhərrəm Məhərrəmova anası

**Validə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili və əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili kafedralarının əməkdaşları bioloji kimya kafedrasının əməkdaşı Hafiz Qasımova anası

**Fitat xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi gigiyena və ekologiya, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, tibbi biologiya və genetika kafedralarının, ETM-in əməkdaşları II daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizova qardaşı

**Fərasət Əzizovovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər .

ETM-in əməkdaşları iş yoldaşları, professor Ramiz Axundova əzizi

**Zərifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər və uşaq cərrahlığı kafedralarının və I saylı xəstəxananın I cərrahi şöbəsinin əməkdaşları iş yoldaşları Teyyub Əliyevə

**anasının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neonatologiya kafedrasının əməkdaşları dosent Aynur Poluxovaya xalası

**Elnura xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları iş yoldaşları Zoya xanıma əzizi

**Humay xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in və insan anatomiyası kafedrasının əməkdaşları ETM-in direktoru, ə.e.x., professor Qalib Qarayevə və ailəsinə qaynanası

**Bilqeyis xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları iş yoldaşları Gülşən xanıma əzizi

**Ağarza müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 100**
**2-ci mərtəbə,**
**tel.: 595-24-97**

**Lisenziya N - 022633**
**İndeks -0269**
**Sayı 4000**
**Sifariş: 987**